# AZƏRBAYCANIN İNFRASTRUKTUR SAHƏLƏRİNİN İNKİŞAF SƏVİYYƏSİ VƏ ƏRAZİ TƏŞKİLİNİN TƏHLİLİ

**T.G.HƏSƏNOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə Azərbaycanın infrastruktur sferasının mahiyyəti, funksiyası, təsir amilləri, yeni standartlara uyğun tam tərkibdə strukturu, bazar mühitinə adaptasiya xüsusiyyətləri, sahələrarası nisbətlərinin təkmilləşdirilməsi, ölkə iqtisadiyyatında yeri və regionların sosial-iqtisadi inkişafına təsir istiqamətləri və s. geniş əhatəli təhlili aparılır.*

Sosial-iqtisadi coğrafiyanın məşğul olduğu əhəmiyyətli elmi problemlərdən biri də mürəkkəb tərkibli və çox funksiyalı infrastruktur sahələrinin tədqiqidir.

Bazar iqtisadiyyatına çoxdan keçmiş və təcrübələri bu gün bizim üçün əhəmiyyət kəsb edən ölkələrdə infrastrukturun coğrafi aspektləri ilə bağlı işlərə hələ XX əsrin əvvəllərindən B.Kristaller (1933), A.Lyos (1959), P.Xaqqet (1979) və b. əsərlərində rast gəlmək olardı. MDB və Azərbaycan məkanında infrastruktura dair əsaslı tədqiqat işləri keçən əsrin 60-cı illərindən bu sahənin inkişafına güclü tələbatın yaranması ilə bağlı N.N.Baranski (1980), E.B.Alayev (1983). İ.M.Mayerqoyz (1981), M.P.Komarov (2000), ölkəmizdə isə A.A.Nadirov (2003), A.H.Salmanov (1987), Z.M.Məmmədov (2002), M.A.Abramov (1984) və b. tərəfindən aparılıb.

Sonrakı illərdə nəqliyyat infrastrukturu istisna olunmaqla, yerdə qalan sahələrin coğrafi problemlərinin öyrənilməsinə diqqət xeyli zəifləmişdir. Özü də belə zəifədilməsi MDB məkanında baş verən sürətli sistem dəyişikliklərinin təsiri altında əvvəllər yazılmış müvafiq coğrafi ədəbiyyatların əksəriyyətinin artıq köhnəlməsi fonunda baş verməsi problemin tədqiq olunmasının aktuallığını xeyli artırır.

Bazar iqtisadiyyatına keçid mərhələsi ilə bağlı Azərbaycan və onun regionlarında infrastruktur sahələrinin və şəbəkələrinin coğrafi təhlilinin aparılmasına və istiqamətlərinin müəyyən edilməsinə tələbat artır.

**İnfrastruktur** (lat. bünövrə, təməl və qurmaq) iki böyük blokdan – istehsal və sosial infrastrukturdan, onlar isə öz növbəsində bir çox sahələrdən təşkil olunmuşlar. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Avropa standartlarına uyğun ola-

raq hazırladığı milli təsnifata görə infrastrukturun aşağıdakı sahələri ayrılır: 1) tikinti; 2) topdan və pərakəndə ticarət, avtomobillərin məişət məmulatlarının və şəxsi əşyaların təmiri; 3) mehmanxana və restoran xidmətləri; 4) nəqliyyat, rabitə və **anbar** təsərrüfatı; 5) daşınmaz əmlakla bağlı xidmətlər (o cümlədən mənzil tikintisi və alqı-satqısı); 6) təhsil; 7) səhiyyə və sosial xidmətlər; 8) digər kommunal, sosial və şəxsi xidmətlər; 9) maliyyə-kredit xidməti; 10) dövlət idarəetmə və müdafiə; 11) ev təsərrüfatı üzrə xidmətlər və b. (4, s. 5, 45-77).

Göstərilən rəsmi bölgüdən əlavə infrastrukturun tərkibinə həm də ən vacib xidməti əhəmiyyət kəsb edən **elektrik enerjisi, qaz və suyun istehsalı və paylanması** daxil edilmişdir. Bu yeni kompleks istehsal infrastrukturu elektrik enerjisi, qaz, buxar (istisu) və suyun istehsalını, təmizlənməsini, boru kəmərləri, elektrik xətləri vasitəsilə nəql olunmasını, ötürücü və bölüşdürücü stansiyalar vasitəsilə istehlakçılara verilməsini təmin edən mürəkkəb sənaye-istehsal fondlarından təşkil olunub, ölkə və regionların inkişafında güclü amilə çevrilibdir.

Respublikamız üçün vacib olan və beynəlxalq miqyasda qəbul olunmuş davamlı inkişaf konsepsiyasına söykənən yeni **ekoloji infrastrukturun formalaşdırılması** və inkişaf etdirilməsinə ehtiyac vardır.

İqtisadi fəaliyyət növü kimi götürülən hər bir infrastruktur sahəsi bu və digər xidmətləri tələb olunan məntəqədə fasiləsiz yerinə yetirən binalar, qurğular, şəbəkələr, yollar və s. qarşılıqlı əlaqələrindən təşkil olub və özünün icra etdiyi funksiyasına görə fərqlənir. Bu sahənin başlıca funksiyası ərazi ilə sıx bağlılıq olub, onun təsərrüfatda mənimsənilməsinin məskunlaşmanın bir növ ilkin «tikinti materiallarını» təşkil edir.

Hazırda respublikada bazar iqtisadiyyatı tələblərinə cavab verə biləcək infrastrukturun çoxsaylı növlərinin formalaşması, ərazi şəbəkənin istehlakçılara yaxınlaşdırılması və servisinin yaxşılaşdırılması tədbirləri aparılır. Bu sahənin qarşısında digər başlıca vəzifə bütün müəssisələri, fermer təsərrüfatlarının ayrı-ayrı sahibkarları yaşayış məntəqələrini lazımi səviyyədə istehsal və sosial xidmətlərlə təchiz etməkdən onların daxili və xarici satış bazarlarına çıxışlarını təmin etməkdən ibarətdir.

Bütün bu geniş miqyaslı tədbirlərin həyata keçirilməsinin təmin olunmasını, 2004-2008-ci illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı tamamilə yeni bir inkişaf müstəvisinə keçirildi. Belə ki, orada «Regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək» (1, s.7) tələbatı ön plana çəkildi. Belə ki, zəruri infrastruktur sahələri olmadan regionların sosial-iqtisadi inkişafına nail olmaq qeyri-mümkündür. Ona görə də infrastrukturun inkişafı ölkə və regionların ümumi inkişafının həmişə önündə getməlidir və onlarda coğrafi əmək bölgüsünün dərinləşdirilməsini, ixtisaslaşmasını və inteqrasiyasını fasiləsiz həyata keçirməlidir. Hər

bir regionda təsərrüfatın sahə və ərazi strukturuna, uyğun müvafiq infrastruktur sahələrinin yaradılması tələb olunur. Özü də belə qarşılıqlı əlaqələr həmişə mütənasib və fasiləsiz xarakter daşımalıdır və onların pozulması təsərrüfat həyatına mənfi təsir göstərər. Məhz ona görə də ölkə və regionların inkişafı gedişində yeni-yeni infrastruktur növlərinin yaradılması prosesi genişlənir.

Ölkəmizdə infrastruktur sahələrinin inkişafına və ərazi fərdlərinə təsir göstərən əsas amillər bunlardır: iqtisadi coğrafi mövqeyi, ərazi əmək bölgüsünün inkişaf səviyyəsi, urbanizasiya və məskunlaşma formaları, təbii şəraiti və ehtiyatlar, əhalinin sosial-iqtisadi vəziyyəti və b.

İqtisadi coğrafi mövqe kənar obyektlərə görə olan əlaqələrlə xarakterizə olunduğundan nəqliyyat və digər infrastrukturların inkişafı ilə sıx bağlıdır. Azərbaycanda bir sıra infrastruktur sahələri – müxtəlif növ qlobal və regional nəqliyyat yolları, rabitə sistemləri, onların təmərküzləşməsi, yeni-yeni qollarının salınması və b. bütün bunlara xidmət göstərən köməkçi sahələri həm də onun əlverişli iqtisadi-coğrafi mövqeyi təsiri altında yaranmışdır.

Bəzi xidmət sahələri məhz yerli təbii, tarixi şəraitin və milli ənənələrin təsiri altında yaranır və onların hazırkı bazar iqtisadiyyatına düzgün transformasiyasının həyata keçirilməsi müsbət nəticələr verərdi.

Azərbaycanın relyefi və iqlim şəraiti nəqliyyatın konfiqurasiyasına, zəlzələyə davamlı tikililərə, körpülərə və b. əlavə tədbirlərin görülməsinə, evlərin qızdırılmasına, yanacağın az işlədilməsinə, soyuduculara tələbatın çoxalmasına və s. təsir göstərir.

Əmək bölgüsünün təsiri altında son illər Azərbaycanın infrastrukturunda vahid xidmət sahəsinin ayrı-ayrı sahə və yarımsahələrə bölünməsi və onların hər birində ixtisaslaşmanın dərinləşməsidir. Bunu biz əvvəllər vahid mənzil-kommunal təsərrüfatı daxilində birləşdirilən bir çox xidmət növlərinin – elektrik enerjisi, qaz, su, istilik təchizatı və s. hər birinin hazırda ixtisaslaşdırılmış müstəqil istehsal infrastrukturu sahələrinə çevrilməsindən aydın görürük. Keçmiş dövlət ticarət nazirliyi və Azərittifaqın tərkibində fəaliyyət göstərən topdan və pərakəndə ticarətin hazırda 181-dən çox yeni növü ayrılmışdır (4, s.45-50).

Güclü texniki bazası, köməkçi və yardımçı sahələri olan ixtisaslaşdırılmış istehsal infrastrukturları – Azərienerji, Nəqliyyat və Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri, Azəriqaz, Azərsu təchizatı və b. hazırda bütün respublikaya və regionlarına xidmət göstərirlər.

Yüksək servis xidmətinə və səmərəliliyə malik olan belə mütərəqqi proses gələcəkdə genişləndiriləcəkdir.

Müasir şəraitdə infrastruktur sahələrində **təmərküzləşmə prosesi** də güclənir, yəni daha keyfiyyətli və ucuz xidmət-servis təklif edən nisbətən iri müəssisələr tədricən xırda müəssisələri sıxışdırıb aradan çıxarırlar. Elə bunun nəticəsidir ki, təkcə 2000-2004-cü illərdə infrastruktur sahələrinə məxsus olan müəssisələrin sayı 1,3 dəfə azaldığı halda, onlarda çalışan işçilər 1,9 dəfə, isteh-

sal olunan məhsulların (xidmətlərin) həcmi 3,4 dəfə artmışdır (22 s. 115-118). Təmərküzləşmə prosesi həm də infrastrukturun coğrafiyasına təsir göstərir: xırda müəssisələr rəqabətə dözməyərək aradan çıxarılır, iriləri isə yeni texniki vasitələrin köməkliyi ilə möhkəmlənirlər və keyfiyyəti aşağı salmadan xidmət dairələrini genişləndirirlər. Əlbəttə, səpələnmiş halda yerləşən və kiçik yaşayış məntəqələri olan regionlarda təmərküzləşməyə diferensial yanaşılmalıdır.

Azərbaycanda infrastruktur sahələrinin inkişaf yoluna nəzər salsaq görərik ki, o, heç də həmişə rəvan olmamışdır. Hələ SSRİ dövründən yol verilən ayrı-seçkilik nəticəsində üzün illər səviyyəsinə görə qonşu respublikalardan geri qalmış, sahə və ərazi strukturunun nisbətlərində bu gün də öz mənfi təsirini hiss etdirən disproporsiyalar qalmaqdadır. Azərbaycanda mərkəzin tələbatına daha çox cavab verən istehsal infrastrukturu sosial xidmət sahələri ilə müqayisədə üstün inkişaf etdirilirdi. Ona görə də yalnız müstəqillik illərində onun tam şəkildə formalaşdırılması ardıcıl davam etdirilmişdir.

Xarici şirkətlərin iştirakı ilə Xəzərin neft – qaz ehtiyatlarının mənimsənilməsi ilə əlaqədar olaraq Azərbaycanda infrastruktur sahələrinin inkişafında yeni mərhələ başlandı: ölkəni dünya bazarına bağlayan «İpək yolu» və onunla əlaqədə olan bir çox regional və lokal infrastrukturlar yaradılmağa başlandı, çoxlu yeni, xüsusilə rabitə texnologiyası ilə bağlı xidmət növləri və qabaqcıl idarəçilik metodları gətirildi, infrastruktur sahələrinə investisiya qoyuluşu kəskin sürətdə artırıldı.

Bütün bunlar öz əksini Azərbaycanın infrastruktur sahələrinin inkişafında, bazar iqtisadiyyatında onun əhəmiyyətinin artmasında, ümumi daxili məhsulun (ÜDM) yerinin möhkəmlənməsində və s. tapmışdır.

Ölkənin infrastruktur sahələrinin inkişafı ÜDM artımından çox asılıdır. Belə ki, büdcədən iri həcmdə maliyyələşdirilən təhsil, səhiyyə, sosial-xidmətlər və s. ayrılan vəsaitlər də artırılır.

Bu sahədə isə son illər ölkəmizin yaxşı nailiyyətləri olmuşdur: əgər 1995-ci ildə adambaşına düşən ÜDM-un həcmi respublika üzrə 1410,3 min. man olmuşdursa, 2004-cü ildə bu 5114,8 min-ə çatmış və ya 3,6 dəfə artmışdır (2, s.355).

İnfrastruktur sahələrinin ÜDM-da yerini və strukturunu aşağıdakı məlumatlar daha yaxşı xarakterizə edir (cədvəl 1).

Cəmi iki il ərzində Azərbaycanın ÜDM həcmi 17,2% artdığı halda infrastruktur sahələrində bu, 19% təşkil etmişdir. 2004-cü ildə ölkənin ÜDM infrastrukturun payı 48,6%, əsaslı fondlarında isə 47,4%, məşğul olan əhalidə 53,5% olmuşdur. Belə dinamik artım respublikada 2004-cü ildə adambaşına düşən infrastruktur xidmətlərinin həcmini 2438,5 min.manata çatdırmışdır.

Cədvəl 1

**2003-2004-cü illərdə Azərbaycanın ÜDM-da infrastruкtur sahələrinin yeri və struкturu (mlyrd.man. (кöhnə pula))**

| *S A H Ə L Ə R* | *2003* | | *2004* | |
|---|---|---|---|---|
| | *Mütləq həcmi* | *İnfrastruк. sah.x.ç.%-lə* | *Mütləq həcmi* | *İnfrastruк. sah.x.ç.%-lə* |
| ümumi daxili məhsul | 35732,5 | 100,0 | 41872,5 | 100,0 |
| Ondan: İnfrastruкtur sahələri cəmi: xüsusi çəкisi %-lə | 17140<br>- | 48,0<br>100,0 | 20355,1<br>- | 48,6<br>100,0 |
| Tiкinti sahəsi | 3833,0 | 22,3 | 5438,5 | 26,7 |
| Nəqliyyat və rabitə | 3569,2 | 20,8 | 3966,1 | 19,5 |
| Eleкtriк enerjisi, qaz və suyun isteh.və bölüşdür. | 2077,5 | 12,1 | 2298,7 | 11,2 |
| Topdan və pəraкəndə satış: avtomobillərin, məişət texniкi təmiri. | 2599.1 | 15,0 | 3166,1 | 15,6 |
| Mehmanxana və restoran xidmətləri | 166,0 | 1,0 | 261,3 | 1,3 |
| Əhaliyə göstərilən pullu xidməti | 1961,1 | 17,4 | 3473,0 | 17,1 |
| Sosial və qeyri-formal xidmətlər | 1964 | 11,3 | 1751,11 | 8,6 |

1) Mənbələr: 1) [2 s.328], [3, c. 21], [5, s.13]

Hazırкı mərhələdə ölкə qarşısında bazar iqtisadiyyatının istehsal bazasını və xarici əlaqələrini inкişaf etdirməк vəzifəsi durduğundan istehsal infrastruкtur sahələrinin genişləndirilməsinə daha çox diqqət yetirilir. 2004-cü ildə infrastruкturun ümumi məhsulunun 73% – istehsal və 27%-i sosial xidmət sahələrinin payına düşmüşdür. Sosial-xidmətin həcmi və çeşidi əhalinin artan tələbatından geri qalır və onun əvvəllər sabit fəaliyyət göstərən bir çox кeçib sahələrinə – uşaq bağçalarına, sanatoriya-кurort xidmətinə və b. diqqət zəiflədilmişdir.

Təsərrüfatın və əhalinin artan tələbatından, ölкənin investisiya ehtiyatlarından, xarici əlaqələrin genişləndirilməsindən və b. amillərdən asılı olaraq 2004-cü ildə respubliкanın ümumi infrastruкturunda ayrı-ayrı sahələrin xüsusi çəкiləri aşağıdaкı кimi olmuşdur: tiкinti 26,7%, nəqliyyat və rabitə 19,5%, əhaliyə göstərilən pullu xidmətlər – 17,1, topdan və pəraкəndə ticarət 15,6%, eleкtriк enerjisi, qaz və suyun istehsalı, hazırlanması və paylanması 11,5%, yerdə qalanı digər кiçiк sahələrin payına düşmüşdür.

Ölкənin bütün şəhər və кəndlərini əhatə edən eleкtriк enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsinin 2004-cü ildə 340 müəssisəsi və 39,8 min nəfər işçi olmuşdur (2, s. 99). Hazırda həmin sahələrin zəif inкişafı və böyüк əкsəriyyətinin Abşeronda cəmlənməsi regionların sosial-iqtisadi inкişafına mənfi təsir göstərən başlıca amilə çevrilməкdədir. Sahənin əhəmiyyəti nəzərə alınaraq ölкənin bir sıra rayonlarında, o cümlədən Astara və Şəкidə mobil qaz-кondensat istiliк eleкtriк stansiyaları tiкilir. Yaxın illərdə iri Şahdəniz qaz yataqlarının mənimsənilməsinin təsiri daha güclü olacaqdır.

Azərbaycanda həyata кeçirilən genişmiqyaslı özəlləşdirmə tədbirləri ilк növbədə çoxsaylı кiçiк və çeviк xidmət müəssisələrdən – mağazalar, yeməкxanalar, məişət xidməti, sərnişin avtonəqliyyat vasitələrini və s. ibarət edən infrastruкtur sahələrindən baş-

laması onların inkişafına müsbət təsir göstərmişdir.

Azərbaycanın infrastrukturun inkişafında xarici və müştərək müəssisələrinin rolu getdikcə artır və onların iş təcrübəsindən, texniki yeniliklərindən və ən başlıcası, investisiya imkanlarından istifadə genişlənir. İnfrastruktur sahələri qoyulan sərmayələri tez geri qaytara bilən istehsal sferasından fərqli olaraq xarici sahibkarlar üçün həmişə cəlbedici olmuşlar.

2004-cü ildə ölkədə fəaliyyət göstərən bütün kiçik infrastruktur müəssisələrinin 612-si və ya 4,5%-i, çalışan işçilərin 34 min nəfəri və ya 39,9%-i, istehsal olunan məhsulların (işlərin və xidmətlərin) daha çoxu -7798 milyard manatı və ya 57%-i xarici və müştərək müəssisələrin payına düşmüşdür [2, s. 118, 123].

Əhalinin məşğulluğunun artırılmasında, maddi-şəraitinin yaxşılaşdırılmasında infrastruktur sahələrinin rolu getdikcə artır. Postsosialist ölkələrində istehsalın zəif inkişafı fonunda ticarət, xidmət və digər sahələri xüsusi əhəmiyyət kəsb edirlər.

Ona görə də 1995-2004-cü illər də Azərbaycanın iqtisadi fəaliyyət növləri ilə məşğul olan işçilərin ümumi sayında infrastruktur sahələrinin xüsusi çəkisi 47,7%-dən 54,5%-ə qalxmış və ya 462,7 min nəfər artmışdır. Göstərilən illərdə infrastruktur sahələrində çalışan işçilərin sayının yüksək artımı daha çox idarəetmə (4,1 dəfə), ticarət (1,3 dəfə), mənzil kommunal təsərrüfatı və məişət xidməti, nəqliyyat və rabitədə (hər ikisində 1,2 dəfə) baş vermişdir (2, s. 97-99). Müstəqil dövlət kimi fəaliyyət göstərməsi əvvəllər mövcüd olmayan bir çox yeni funksional təsərrüfat və idarə orqanlarının hərbi sistemin yaradılması və s. ilə bağlı olaraq bu sahələrdə çalışanların sayı kəskin surətdə artmışdır. Digər infrastruktur sahələrindən – tikinti, səhiyyə və sosial xidmətlərdə artım sabit qalmış, təhsil və maliyyə xidmətlərində azalmış, elm və elmə xidmətdə isə lap aşağı düşmüşdür.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının tələblərinə uyğun olaraq yeni iş yerlərinin açılmasında infrastruktur sahələrinin geniş növ və ərazi şəbəkəsinin rolu böyükdür. Belə ki, ölkədə açılan iş yerlərinin (2003-cü il IV rüb və 2004-cü il) 35,2 min nəfəri və ya 38,2%-i məhz infrastruktur sahələrinin payına düşmüşdür (6, s. 36-37).

İnfrastruktur sahələrinin inkişafı və ərazi təşkilində iri regional şəhər mərkəzlərinin rolunun böyük olması hələ çoxdan məlumdur. Müəyyən yetkinlik səviyyəsinə çatmış şəhər mərkəzləri müxtəlif istehsal və sosial xidmət növləri kompleksinə malik olmaqla həm özlərinin tələbatlarını ödəyirlər, həm də ətraf yaşayış yerlərinə xidmət göstərməklə bütövlükdə regionun sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevrilirlər.

Ona görə də hazırkı mərhələdə başlıca vəzifə regionlarda olan belə şəhərlərin dirçəldilməsi istiqamətində onlarda yeni müəssisələrlə yanaşı bazar infrastrukturları – nəqliyyat yolları, biznes mərkəzləri, bank filialları, lizinq xidməti, yeni özəl məktəblər, litseylər və s. yaradılmasıdır. Özlərinin əlverişli nəqliyyat - coğrafi möv-

qeləri, təsərrüfat-xidmət və elmi-mədəni potensialı, ətraf ərazilərə təsirinə görə fərqlənən belə regional şəhər mərкəzləri sırasına Baкı ilə yanaşı, Gəncəni, Mingəçeviri, Bərdəni, Yevlaxı, Şəкini, Zaqatalanı, Əli-Bayramlını, Qubanı, Xaçmazı, Xanкəndini, Lənкəranı və Naxçıvanı daxil etməк olar. Əlbəttə, ölкənin təsərrüfat sahələrinin inкişafı və dövlətin regional siyasətindən asılı olaraq belə mərкəzlərin sayı arta bilər.

Beləliклə, Azərbaycanın formalaşmaqda olan geniş tərкibli infrastruкturu onun təsərrüfat sahələrinin və regionların inкişafını tam təmin etmir, gələcəкdə bu sahənin təsiri və coğrafi şəbəкəsi daha da genişləndirəcəкdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respubliкası regionlarının sosial-iqtisadi inкişafı. Dövlət Proqramı (2004-2008-ci illər). Baкı, Nurlar, 2004, 159 s.
2. Azərbaycanın statistiк göstəriciləri, 2005. ARDSK. Baкı: Səda, 2005, 868 s.
3. Azərbaycanın sənayesi, 2005. ARDSK. Baкı, Səda, 2005.
4. İqtisadi fəaliyyət növlərində təsnifatı. ARDSK-nın baş hesablama mərкəzi. Baкı, 2001, 266 s.
5. Sosial-iqtisadi inкişaf, yanvar-deкabr. ARDSK. Baкı, Səda, 2005, 104 s.
6. Yeni iş yerləri, yanvar-deкabr, 2005. ARDSK. Statistiк məcmuə. Baкı, Səda, 2005.
7. Комаров М.П. Инфраструктура регионов мира. Санкт-Петербург, Изд-во Михайлова В.А., 2000, 348 с.

## АНАЛИЗ УРОВНЯ РАЗВИТИЯ И ТЕРРИТОРИАЛЬНОЙ ОРГАНИЗАЦИИ ИНФРАСТРУКТУРНЫХ ОТРАСЛЕЙ АЗЕРБАЙДЖАНА

**Т.Г.ГАСАНОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются формирование и развитие отраслевой и территориальной структуры сферы инфраструктуры Азербайджана, определяется место и значение в экономическом развитии хозяйства и регионов страны.

Выявлены динамика роста и диспропорции в развитии отдельных внутрирайонных видов инфраструктуры.

## ANALYSE OF THE DEVELOPMENT LEVEL AND TERRITORICAL ORGANISATION OF THE INFRASTRUCTURAL BRANCHES OF AZERBAIJAN

**T.H.HASANOV**

### SUMMARY

The formation and development of the branch and terrritorical structure of the infrastructural sphere of Azerbaijan, definition of the place and meaning in the economic development of the housekeeping and the regions of the country are discussed in this article.

The dynamics of the growth and disproportion in the development of the separate internal-districted types of the infrastructure are also invented here.